# NAFTALAN




*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir • № 3-4 (419) • 19 fevral 2020-ci il • Qiyməti 90 qəpik


## NAFTALAN ŞƏHƏRİNDƏ 2019-CU İLİN YEKUNLARI BARƏDƏ

# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun HESABAT MƏRUZƏSİ




Bildiyiniz kimi yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin yanında 2019-cu ilin yekunları ilə bağlı müşavirə keçirilib. Müşavirədə çıxış edən ölkə başçısı ötən il Respublikamızda görülmüş işlərdən, əldə olunmuş uğurlardan danışmış, ölkəmizin potensialının artdığını konkret rəqəmlərlə vurğulamışdır.

Dövlət başçısı bildirmişdir ki, ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu.Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Deyə bilərəm ki, ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır. Keçən il bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir.

Bütövlükdə 2019-cu il dərin islahatlar ili olduğunu deyən möhtərəm Prezident cənab İlham Əliyev bu islahatların inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verəcəyini, o cümlədən iqtisadi artımın daha da böyük rəqəmlərlə ölçüləcəyini vurğulayıb. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Ümumi daxili məhsul 2,2 faiz artmışdır, bu, yaxşı nəticədir, xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artmışdır, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artmışdır. Bu da son illər ərzində sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır.

Dövlət başçısı əminliklə bildirib ki, biz 2020-ci ildə bu uğurlar yolu ilə gedəcəyik, 2020-ci il də ölkəmiz üçün uğurlu olacaqdır.

Bəli bu gün, möhtərəm Prezident cənab İlham Əliyevin müdrik və gələcəyə hesablanmış sosial-iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, ölkəmiz son illər dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən, beynəlxalq maliyyə qurumlarının hesabatlarında 20 ən islahatçı ölkə sırasında yer tutan etibarlı tərəfdaş kimi tanınır.

Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi islahatlar kurort şəhəri Naftalanın da bütün sahələrdə inkişafına müsbət təsir göstərmişdir. Ümumilikdə son illər möhtərəm Prezident cənab İlham Əliyevin tapşırıqlarına uyğun şəhərdə abadlıq-quruculuq işlərinin genişlənməsində, önəmli sosial layihələrin həyata keçirilməsində və ən əsası turizmin inkişafında çox böyük uğurlar qazanılmış, makroiqtisadi göstəricilərdə müsbət dinamika müşahidə olunmuşdur.

2019-cu ildə ümumi məhsul buraxılışı ötən hesabat ili ilə müqayisədə 22,5 faiz artaraq 34 mln 983 min manat, iqtisadiyyatın aparıcı sahəsi olan sənaye məhsulu xidmətlərinin həcmi 21,9 faiz artaraq 2 mln 470,4 min manat təşkil etmişdir. Əhaliyə göstərilən nəqliyyat və anbar təsərrüfatı xidməti 3,2 faiz artaraq 325,4 min manat, əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri olan ödənişli xidmətlərin həcmi 28 mln 758,3 min manat, pərakəndə əmtəə dövriyyəsinin həcmi 3,8 faiz artaraq 25 mln 419,4 min manat, hüquqi və fiziki şəxslərə göstərilən informasiya və rabitə xidməti 8,2 faiz artaraq 246,6 min manat olmuşdur. Ümumi məhsul buraxılışının həcmində kənd təsərrüfatı məhsulunun payı 1 mln 514,8 min manat, tikinti işlərinin həcmi 53,8 faiz artaraq 21 mln 858,7 min manat təşkil etmişdir. İqtisadi artım əhalinin əmək haqqı gəlirlərində özünü aydın şəkildə göstərmiş, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı hesabat ilində 2018-ci illə müqayisədə 22 faiz artaraq 432,9 manata yüksəlmişdir.

Şəhərin yerli büdcəsinin mədaxil hissəsi 2 mln 957 min manat planlaşdırıldığı halda yerli mənbələrdən daxil olan gəlirlər hesabına 3 mln 87,941 min manat olmuşdur. Yəni nəzərdə tutulduğundan 4,4 faiz və ya 130,941 min manat artıq vəsait daxil olmuşdur. Xərcləri isə 2 mln 656,876 min manat təşkil etmişdir. Bu dövrdə əsas sosial ödəmələrin maliyyələşdirilməsi təmin edilmiş, əmək haqları, pensiya üzrə bütün öhdəliklər yerinə yetirilmişdir.

Xatırladım ki, 4 ildir ki, Naftalan şəhəri xərclərini öz yerli gəlirləri hesabına təmin edir.Təbii ki, buna Naftalan, ölkə başçısının şəhərin turizm sektorunda apardığı islahatlar və bu islahatlara uyğun olaraq şəhərimizdə istifadəyə verilən müasir səviyyəli turizm mərkəzlərindən daxil olan gəlirlər hesabına nail olmuşdur.

Bildiyiniz kimi, ötən il ölkəmizdə çox böyük sosial paket təsdiqlənmiş, çox önəmli addımlar atılmışdır. Minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Möhtərəm Prezident cənab İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə dair tapşırıqlarının icrası və bu sahədə yaranmış problemlərin həlli daim Şəhər İcra Hakimiyyətinin nəzarətində saxlanılmışdır. Əhalinin aztəminatlı və sosial cəhətdən xüsusilə həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə diqqət artırılmışdır. Şəhər İcra Hakimiyyəti tərəfindən onlara Novruz, Qurban, Yeni il və digər bayramlarda bayram sovqatları paylanmışdır. Bu kateqoriyadan olan vətəndaşlarla Şəhər İcra Hakimiyyətində görüşlər təşkil edilmiş, müraciət əsasında evlərində ziyarət olunmuşlar.

Həmçinin Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması, müxtəlif çeşid seçimi və əlverişli qiymətə almaq imkanının yaradılması məqsədilə bayram günlərində daha geniş yarmarkalar təşkil olunmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər şöbəsinin qarşısına qoyulmuş məsələlər uğurla həyata keçirilmişdir. Fondun şəhər şöbəsi tərəfindən cəzaçəkmə müəssisələrindən azad olunmuş 6 nəfərə 3,1 min manat, 9 Çernobıl əlilinə 1,935 min manat birdəfəlik müavinət verilmişdir. Şöbənin sosial xidmət işçiləri tərəfindən 46 nəfər tənha, köməyə ehtiyacı olan qoca və əlilə evlərində xidmət göstərilmişdir. 18 nəfər əlilə istirahət və müalicə üçün sanatoriya-kurort yollayışı verilmişdir.

Hesabat ili ərzində vətəndaşların pensiya təminatı ilə əlaqədar müraciətlərinə baxılması işi davam etdirilmiş, bu müddətdə 21 nəfərə müvafiq kateqoriyalar üzrə pensiya təyinatı aparılmışdır. Ümumilikdə şəhər üzrə 1505 nəfər pensiyaçıya xidmət göstərilmişdir ki, onlardan 258 nəfəri işləyən pensiyaçılardır. Pensiya, müavinət və digər sosial yardımlar vaxtlı-vaxtında tam ödənilmişdir. Hesabat dövründə qeydiyyatda olan pensiyaçılara ümumilikdə 362,999 min manat vəsait ödənilmişdir.

Əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların tibbi-sosial reabilitasiya imkanlarının genişləndirilməsi möhtərəm cənab Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin mühüm tərkib hissəsidir. Eyni zamanda, dövlət başçısının tapşırıqlarına əsasən reabilitasiya mərkəzlərində müasir tələblərə uyğun şərait yaradılır. Ötən il Naftalan şəhərində Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir. Müəssisə yeni müasir tibbi-reabilitasiya aparatları, avadanlıqlarla təchiz edilmişdir. Burada əlilliyi olan şəxslərə effektiv fizioterapevtik üsulların tətbiqi əsasında tibbi-sosial reabilitasiya xidmətləri ilə yanaşı Naftalan nefti ilə müalicə prosedurları da tətbiq edilir.



**Ardı 2-ci səhifədə**

# NAFTALAN ŞƏHƏRİNDƏ 2019-CU İLİN YEKUNLARI BARƏDƏ

# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun HESABAT MƏRUZƏSİ

Əvvəli 1-ci səhifədə

Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə şəhər Məşğulluq Mərkəzi əhalinin işlə təmin olunması sahəsində müvafiq tədbirlər həyata keçirmiş və bu istiqamətdə işlər davam etdirilir. Ancaq bu sahədə müəyyən çatışmazlıqlar mövcuddur. Bəzi hallarda mövcud vakant iş yerləri vaxtında Mərkəzə təqdim olunmur. Buna görə də şəhərin idarə, müəssisə və turizm obyektlərinin rəhbərlərinin bu işə daha məsuliyyətlə yanaşmaları, boş vakansiyalar və ya yeni yaranan iş yerləri barədə məlumatları müntəzəm olaraq Mərkəzə təqdim etmələri tövsiyə olunur.

Ötən il Məşğulluq Mərkəzi tərəfindən 912 nəfər işaxtaran kimi qeydiyyata alınmış, onlardan 426 nəfər işlə təmin olunmuşdur. Ümumilikdə son illərdə sahibkarlar tərəfindən tikilib istifadəyə verilmiş müasir səviyyəli yeni müalicə və istirahət mərkəzlərində hazırda 1000 nəfərə yaxın vətəndaş işləyir.

Həmçinin dövlət başçısının yeni iş yerlərinin açılması ilə bağlı sosial təşəbbüsü əsasında dövlət qurumları tərəfindən verilən vakansiyalar, eləcə də yeni yaradılan abadlıq və təmizlik işləri üzrə Naftalanda 227 nəfər işlə təmin olunmuşdur. Onlardan 24-ü SOCAR-da, 28 Naftalan Elektrik Şəbəkəsində, 175 nəfəri isə DOST-İş Mərkəzi" MMC tərəfindən abadlıq və təmizlik işləri üzrə qeyri-daimi işlərə cəlb edilmişdir.

"Əhalinin özünüməşğulluğun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" ölkə başçısının 07 aprel 2016-cı il tarixli müvafiq Sərəncamına uyğun olaraq işaxtaran aztəminatlı şəhər sakinlərinin özünüməşğulluğa cəlb edilməsi Naftalan şəhər sakinləri də yararlanırlar. Ötən il şəhər üzrə özünüməşğulluğa cəlb olunanların sayı 43 nəfərə çatdırılmışdır. Həmin 43 nəfər özünüməşğulluq təlimlərinə cəlb edilmiş və onlardan potensial imkanları nəzərə alınmaqla yüksək nəticə göstərən 32 nəfər biznes planlarında nəzərdə tutulmuş profil üzrə mal-qara və avadanlıqlarla təmin olunmuşdur. Bu layihədə əsas məqsəd ona yönəlib ki, həmin vətəndaşlar öz ailələri və həyat səviyyələrinin yüksəldilməsi üçün uğurlu biznes qura bilsinlər.

Ötən ilin may ayında iş axtaran şəhər sakinlərinin müvafiq iş yeri tapmaq və ya işlə təmin olunma imkanı əldə etmələri məqsədilə "Əmək yarmarkası" keçirilmiş, 25 nəfər ixtisasına və peşəsinə uyğun işlə təmin olunmuşdur.

Hesabat dövründə digər sahələrlə yanaşı təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində bir çox nailiyyətlər əldə olunmuşdur. Şəhər İcra Hakimiyyəti tərəfindən təhsil, səhiyyə, mədəniyyət və gənclər təşkilatları ilə iş daim diqqət mərkəzində saxlanılır. Məktəblərin maddi texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Şəhərin ümumtəhsil məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi, bilik və fiziki yarışların keçirilməsi, şagirdlərin dərsə davamiyyəti ilə bağlı Şəhər Təhsil şöbəsi tərəfindən müvafiq işlər görülmüşdür.2019-2020-ci tədris ilində ümumtəhsil məktəblərində 68 sinif komplektində 1390 şagird təhsil almış, I sinifə 161, məktəbəhazırlıq qruplarına 133 uşaq qəbul edilmişdir. Onların təlim-tərbiyəsi ilə 170 müəllim məşğul olur. Tədris ili ərzində məktəblərarası toplantılar, rəsm, inşa, bilik, mahnı müsabiqələri və yarışlar təşkil olunmuşdur.

Ötən tədris ilində İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin Tarix müəllimi Nəzirə Dəmirova"Azərbaycan Respublikası Təhsil Nazirinin Qabaqcıl təhsil işçisi" döş nişanı, S.Vurğun adına 2 nömrəli tam orta məktəbin fizika müəllimi Ceyhun Xəlilov isə "Fəxri fərman"ı ilə təltif olunmuşlar.

Dövlət başçısının tövsiyəsinə əsasən hər il keçirilən tur-aksiyalar artıq ənənə halı alıb. 2019-cu ilin mart və noyabr aylarında şəhərimizin ümumtəhsil məktəblərində oxuyan, təhsildə fərqlənən şagirdlərindən ibarət qrup "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Lənkəran-Masallı-Astara və Quba-Qusar-Xaçmaz marşrutları üzrə növbəti maarifləndirici tur-aksiyaya qoşulmuş, həmin bölgələrin müasir həyatı, tarixi, adət-ənənələri və nailiyyətləri ilə yaxından tanış olmaq imkanı əldə etmişlər.

2018-2019-cu tədris ilinin məzunlarından 44 nəfəri ali məktəblərə qəbul imtahanında iştirak etmiş, onlardan 26 nəfəri ali məktəbə qəbul olunmuşdur. Ali məktəblərə qəbul olanların 3 nəfəri 500-dən, 6 nəfəri 400-dən yuxarı bal toplamışdır. Şəhər Təhsil şöbəsinin rəhbərliyi 2019-2020-ci tədris ilinin sonunda ali məktəblərə qəbulun nəticələrinin yüksək olması üçün əməli tədbirlər həyata keçirməlidir.

Bildiyiniz kimi Prezident cənab İlham Əliyev böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan etmişdir.

Bu münasibət ilə şəhərin ümumtəhsil məktəblərində tədbirlər təşkil olunmuş və "Nəsimi şerində xalq nəfəsi" mövzusunda konfrans keçirilmişdir.Həmçinin yubileylə bağlı Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü ilə 06 dekabr 2019-cu il tarixdə respublikamızda, o cümlədən şəhərimizin müxtəlif yerlərində ümumilikdə 3000 eldar şamı, tuya və çinar ağacı əkilmişdir. Əkilən ağaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, kurort şəhəri Naftalanın ümumi mənzərəsinə yeni çalarlar əlavə edib.



Dövlət tərəfindən gələcəyimiz olan uşaqlara xüsusi diqqətlə yanaşılır, onların sağlam, savadlı olmaları üçün mühüm işlər görülür.Son illərdə paytaxtla yanaşı, bölgələrimizdə bir çox uşaq tərbiyə və təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılmış, yeni uşaq bağçaları tikilmişdir. O cümlədən şəhərimizdə fəaliyyət göstərən körpələr evi-uşaq bağçasında da uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılmışdır.

Məlumunuz olduğu kimi, ölkə başçısı Naftalan şəhərinə sonuncu səfərindən sonra şəhərdə yeni 200 yerlik məktəbəqədər təhsil müəssisəsinin tikintisi məqsədilə müvafiq sərəncam imzalamışdır. Sərəncama əsasən ötən il yeni bağçanın tikintisi işləri başa çatdırılmış, hazırda körpələr evi-uşaq bağçasının ərazisində abadlıq işləri aparılır. İki mərtəbəli binada mətbəx, yemək və yataq otaqları, musiqi, idman və əyləncə zalları inşa edilmiş, mərkəzləşdirilmiş istilik sistemi yaradılmış, bina isti və soyuq su ilə təchiz edilmişdir. Həmçinin müasir rəngbərəng inventar və mebel dəstləri ilə tam təchiz edilərək, uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilmişdir.

Körpələr evi-uşaq bağçasının bir hektara yaxın ərazisində balacaların əyləməsi üçün 10 ədəd söhbətgah quraşdırılmış, ərazi asfaltlanmış və müasir işıqlandırma sistemi quraşdırılmışdır. Yaxın günlərdə yaşıllıq zolağının salınması işlərinə başlanılacaq. Bu məktəbəqədər təhsil müəssisəsi istifadəyə verildikdən sonra şəhərdə sayca ikinci məktəbəqədər təhsil müəssisəsi olacaq.

Hesabat ilində mədəniyyət sahəsinin fəaliyyətinin günün tələbləri səviyyəsində inkişafına mane olan mövcud problemlərin aradan qaldırılması istiqamətində işlər davam etdirilmiş, şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyi tərəfindən bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilmişdir.



Belə ki, köhnə şəhər xəstəxanasının iki inzibati binası əsaslı təmir edilərək şəhər Mədəniyyət Mərkəzi, Nizami Gəncəvi adına Mərkəzi Kitabxana və turistlərin böyük marağına səbəb olan Tarix-Diyarşünaslıq Muzeyinin istifadəsinə verilmişdir. Görülmüş işlərlə yanaşı bu sahədə problemlər də mövcuddur; hazırda şəhər Uşaq Musiqi məktəbi vəziyyəti ürəkaçan olmayan uyğunlaşdırılmış binada yerləşir. Bu isə uşaqların yüksək səviyyədə musiqi təhsili almalarına mənfi təsirini göstərir. İnanırıq ki, yaxın gələcəkdə bu məsələdə öz həllini tapacaqdır.

Mədəniyyət müəssisələri tərəfindən müxtəlif tarixi və əlamətdar günlərlə əlaqədar bir sıra tədbirlər keçirilmiş, şəhər sakinlərinin, turistlərin, eləcə də N saylı hərbi hissədə hərbi qulluqçuların asudə vaxtlarını səmərəli keçirmələri üçün konsert proqramları və həmin konsertlərdə tanınmış müğənnilərin çıxışları təşkil olunmuşdur.

Naftalan şəhər Uşaq Musiqi məktəbində hazırda 90 müəllim 253 şagirdə musiqi təhsili verir. Yeni istifadəyə verilmiş kitabxanada ötən il ərzində 2056 nəfər oxucu qeydə alınmışdır.

Fevral ayında Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə "Gənclər Günü" münasibətilə keçirilmiş musiqi müsabiqəsində şəhid kapitan Vaqif Bayramovun xatirəsinə həsr olunmuş "İntiqam gününə az qalıb daha" kompozisiya ilə çıxış edən şəhər Uşaq Musiqi məktəbinin "Vətənpərvərlər" qrupu I yerə layiq görülmüşdür.

"15 iyun - Milli Qurtuluş Günü" münasibətilə Heydər Əliyev parkında ümumşəhər bayram tədbiri keçirilmiş və tədbirin sonunda atəşfəşanlıq olmuşdur.

Ulu Öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədi ilə Heydər Əliyev Mərkəzində illik iş planı əsasında ardıcıl iş aparılmışdır. "Müasir Azərbaycanın banisi, xilaskarı və qurucusu Heydər Əliyev", "İlham Əliyev Heydər Əliyev siyasi kursunun davamçısıdır" mövzularında tədbirlər təşkil olunmuşdur. Eyni zamanda YAP Naftalan şəhər təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə gənclərlə mütəmadi olaraq Mərkəzdə görüşlər keçirilmişdir. Ötən il ərzində Heydər Əliyev Mərkəzinə 4042 nəfər ekskursiya etmişdir ki, onlardan 731 nəfəri xarici ölkələrin vətəndaşı və rəsmi dövlət nümayəndələri olmuşdur. Mərkəzlə tanış olan hər bir şəxsə Mərkəzin əməkdaşları tərəfindən Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillər barədə geniş məlumat verilmişdir.

Şəhər Gənclər və İdman İdarəsi idmanın inkişafı, yeniyetmə və gənclərlə işin təşkili istiqamətində müəyyən işlər görmüş, şəhər stadionunda müəyyən təmir işləri aparılmışdır. Uşaq Gənclər İdman məktəbinin yetirmələri Respublika və zona turnirlərində uğurlu çıxış edərək yüksək göstəricilər əldə etmişlər. Buna misal olaraq şəhərimizin qızlardan ibarət U-13 futbol komandasının Azərbaycan çempionatının Qərb zonası üzrə play-off mərhələsinə vəsiqə qazanmalarını, Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə yeniyetmələr arasında Naftalanda keçirilmiş cüdo idman növü üzrə region birinciliyində şəhərimizin komandasının 12 şəhər və rayon komandaları arasında 4-cü yeri tutmalarını, dekabr ayında Şəki Olimpiya İdman Kompleksində keçirilən Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş universal döyüş idman növü üzrə beynəlxalq turnirdə şəhərimizin idmançılarından 3 nəfərinin I yerə layiq görülməsini göstərmək olar.

Ardı 3-cü səhifədə

# NAFTALAN ŞƏHƏRİNDƏ 2019-CU İLİN YEKUNLARI BARƏDƏ

# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun HESABAT MƏRUZƏSİ

Əvvəli 2-ci səhifədə

Həmçinin bu da sevindirici haldır ki, artıq Uşaq Gənclər İdman məktəbinin cüdo idman növü üzrə məşqçi-müəllimi paytaxt Bakıda keçirilən bir çox beynəlxalq idman yarışlarında işçi qrupunun tərkibində yer alır.

Ümumilikdə gənclər və idman sahəsi üzrə ötən il şəhərdə keçirilən 45-dən çox müxtəlif tədbir və idman yarışlarında 1500-ə yaxın yeniyetmə və gəncin iştirakı təmin olunmuşdur.

Dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarının qarşısında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq və ölkədə könüllülük hərəkatını inkişaf etdirməyi bir vəzifə olaraq qoymuşdur.

Bu məqsəd ilə Naftalan şəhər İcra Hakimiyyəti də gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsinə başlamış, gənclər 2 ay müddətinə bu fəaliyyətə qoşulmuş, müxtəlif sosial bacarıqları və əmək vərdişləri aşılayan təlimlərdə iştirak etmişlər. Könüllü kimi 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərə Şəhər İcra Hakimiyyəti tərəfindən xüsusi sertifikatlar təqdim edilmişdir.

Ölkə başçısının müvafiq Sərəncamı ilə 2020-ci ilin "Könüllülər İli" elan edilməsi cari ildə də bu hərəkatın daha mütəşəkkil xarakter almasını təmin etməklə yanaşı, gənclərin fərdi inkişafına xüsusi təkan verəcəkdir. Bu Sərəncam bir daha Azərbaycan gəncliyinə göstərilən böyük etimad və könüllü gənclərimizin fəaliyyətinə verilən ali dəyərdir.

Onu da qeyd etməliyik ki, şəhərdə idman obyektlərinin və müasir səviyyəli idman qurğularının olmaması yeniyetmə və gənclərin asudə vaxtlarının daha səmərəli təşkilində və idmanın inkişafında problemlər yaradır. Buna görə də Dövlət Proqramına uyğun olaraq şəhər Gənclər və İdman idarəsi tərəfindən aidiyyəti üzrə idman-sağlamlıq obyektlərinin əsaslı təmiri və tikintisi üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

Əhaliyə göstərilən səhiyyə xidmətinin yaxşılaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Şəhərimizdə əhalinin və buraya gələn turistlərin sayının artması, bu sahə üzrə xidmət səviyyəsinin yüksəlməsini son dərəcə zəruri etmişdir.Son illər respublikamızda olduğu kimi, şəhərimizdə də səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və göstərilən səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Məlumdur ki, Prezident cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq Naftalanda 60 çarpayılıq yeni Mərkəzi xəstəxananın tikilib istifadəyə verilməsi əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Ancaq onu da qeyd etməliyik ki, şəhərimizdə ixtisaslı həkim kadrlarına ciddi ehtiyac vardır.Tibb işçilərinin çatışmaması səbəbindən xəstəxanadakı şöbələrdən bəzisinin hazırda fəaliyyət göstərməsi hələlik mümkün olmamışdır.

2019-cu il ərzində əhaliyə göstərilən tibbi xidmətin yüksək səviyyədə təşkilinə müntəzəm nəzarət edilmiş, əhali arasında infeksion xəstəliklərin və qida zəhərlənmələrinin qarşısının alınması istiqamətində bir sıra zəruri tədbirlər görülmüşdür. İl ərzində 527 nəfərə yaxın imtiyazlı xəstə 120 adda pulsuz dərman preparatı ilə təmin edilmişdir. Təcili Tibbi yardım məntəqəsində 2230 çağırış qeydə alınmış, tibb işçiləri tərəfindən onlara vaxtında təcili və təxirəsalınmaz tibbi yardımlar göstərilmişdir.

Dövlət başçısının tapşırığına əsasən müəyyən olunmuş müddət ərzində əhalinin icbari tibbi müayinəsi yüksək keyfiyyətlə həyata keçirilmişdir. 7 mindən çox sakinin pulsuz tibbi müayinədən keçməsi təmin edilmişdir. Müayinələr zamanı xəstəlik aşkar edilənlərdən 1590 nəfərə ambulator, 71 nəfərə isə stasionar müalicə təyin olunmuşdur. 12 nəfər müalicə üçün ixtisaslaşmış tibb müəssisələrinə göndərilmişdir. Xəstəxanaya gələ bilməyən yaşlı və əlil şəxslərə evlərində tibbi xidmət göstərilməsi məqsədilə həkimlərdən ibarət səyyar briqadalar yaradılmışdır.

Oktyabr ayında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu nəzdində Mərkəzi Qan Bankının təşəbbüsü ilə keçirilmiş qanvermə aksiyasına Şəhər İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, hüquq mühafizə orqanlarının əməkdaşları, eləcə də şəhər sakinləri qoşulublar. Qanvermə aksiyasına qan vermək üçün müraciət edənlərin 71 nəfərindən qan götürülmüşdür.

Nəzərinizə çatdırmaq istəyirəm ki,1 yanvar 2020-ci il tarixdən ölkəmizdə İcbari Tibbi Sığortanın tətbiqinə başlanılması vətəndaşların mənafeyinə yönəlmiş və onları daha yüksək keyfiyyətli tibbi xidmətlə təmin etməyə yardım edəcəkdir. Respublikamızın bütün xəstəxanalarında olduğu kimi Naftalan şəhər Mərkəzi Xəstəxanasında da bununla bağlı hazırlıq işləri görülür.

2019-cu il ərzində şəhərdə hüquq mühafizə orqanları tərəfindən qanunçuluq, hüquq qaydalarının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Şəhər Polis şöbəsi tərəfindən 16 cinayət hadisəsi qeydə alınmış və cinayətlərin açılması 95 faiz təmin edilmişdir.Ağır və xüsusilə ağır cinayət hadisəsi qeydə alınmamışdır. Yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması, xüsusilə də narkomanlığa qarşı mübarizə sahəsinə xüsusi fikir verilmiş, tam orta məktəblərdə mütəmadi olaraq müxtəlif məzmunlu tədbirlər həyata keçirilmişdir.

Şəhər ərazisində 1 şəhər, 1 kənd olmaqla 2 İƏD üzrə nümayəndəlik və 2 bələdiyyə fəaliyyət göstərir.Nümayəndəliklər hesabat ili ərzində əraziyə xidmət göstərən təşkilatlarla sıx əlaqədə fəaliyyət göstərmiş, daimi ərazilərinin vəziyyətini nəzarətdə saxlamışlar. Həmçinin digər qurumlardan və vətəndaşlar tərəfindən nümayəndəliklərə göndərilmiş məktub, ərizə və müraciətlərin obyektiv araşdırılmasına, qanunla müəyyən edilmiş müddətdə icrası təmin edilmişdir.

Bələdiyyələr yerli əhəmiyyətli problemlərin həllində mühüm rol oynayırlar. İl boyu bələdiyyələr öz büdcələrinə uyğun olaraq, ərazilərdə mövcud yerli problemlərin aradan qaldırılması, küçə və yolların abadlaşdırılması, ağac əkini və s. istiqamətlərdə tədbirlər həyata keçirmişlər. Hazırda Naftalan Bələdiyyəsinin işinin təkmilləşdirilməsi və səmərəli fəaliyyəti üçün bələdiyyənin yeni inşa olunmuş inzibati binasında son tamamlama işləri aparılır.

Hesabat ilinə təsadüf edən, ötən ilin dekabr ayında keçirilən bələdiyyə seçkiləri ölkəmizin hər yerində olduğu kimi, Naftalanda da yüksək səviyyədə baş tutmuş və heç bir qanun pozuntusu qeydə alınmamışdır.Məntəqələr üzrə seçkilərdə fəal iştirak edən seçicilər layiqli namizədləri dəstəkləmişlər. 2 seçki məntəqəsində səsverməni canlı müşahidə etmək üçün veb-kamera quraşdırılmışdır. Bələdiyyə üzvü seçilmək üçün 56 nəfərin namizədliyi qeydə alınmışdır. Naftalan və Qaşaltı Qaraqoyunlu Bələdiyyələrini formalaşdırmaq üçün ümumilikdə 20 nəfər üzv seçilmişdir Onlardan 8 nəfəri qadınlardır. Seçilmiş üzvlərin 45 faizini 30 yaşadək gənclər təşkil edir. Ölkəmizin hər yerində olduğu kimi Naftalan şəhərində də Yeni Azərbaycan Partiyasını təmsil edən namizədlər arasında gənclərə xüsusi üstünlük verilməsi partiyanın sədri cənab Prezident İlham Əliyevin gənclərə olan qayğısının və etimadının bariz nümunəsidir.

Şəhər İcra Hakimiyyətinə hesabat ilində vətəndaşlardan daxil olmuş ərizə və şikayətlərin baxılmasına, onların təşkilinə xüsusi diqqət yetirmiş, qaldırılan problemlərin araşdırılmasına diqqət artırılmışdır. 2019-cu il ərzində şəhər İcra Hakimiyyətinə 183 müraciət daxil olmuşdur. Müraciətlərdən 95-i dövlət orqanlarından və digər qurumlardan, 88-i isə vətəndaşlardan bilavasitə şəhər İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir. Ötən ilin əvvəlindən təsdiq olunmuş qrafikə uyğun olaraq Şəhər İcra Hakimiyyətində 202 nəfər vətəndaş qəbul edilib dinlənilmişdir.

Ölkə başçısının tapşırığına uyğun olaraq yerlərdə vaxtaşırı səyyar qəbullar keçirilir ki, bu da əksər məsələlərin yerində həll edilməsinə müsbət təsir göstərir. Vətəndaşların mövcud problemlərinin, tələb və təkliflərinin öyrənilməsi və həlli məqsədilə 2019-cu il ərzində ayrı-ayrı ünvanlarda keçirilmiş 7 səyyar qəbulda 19 vətəndaş müraciət etmişdir. Səyyar qəbullarda vətəndaşların müraciətləri ilə bağlı operativ zəruri tədbirlər görülmüş, bir sıra müraciətlər müsbət həllini tapmışdır. Bəzi hallarda qaldırılan problemlərin həlli qeyri-mümkün və ya əsassız olduqda, onlara ətraflı izahat verilmişdir. Heç bir müraciət cavabsız qalmamışdır.

Ötən ilin iyun ayında Şəhər İcra Hakimiyyətində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçiləri tərəfindən şəhər sakinləri qəbul edilib dinlənilmişdir. Qaldırılan məsələlərin bir qismi yerində həll olunmuş, bəzi müraciətlərlə bağlı vətəndaşlara tövsiyələr edilmiş və bir neçə müraciət baxılması üçün nəzarətə götürülmüşdür.

Naftalan Şəhər İcra Hakimiyyəti Apellyasiya Şurasının müraciətlərinin elektron qəbulu sisteminə nəzarət edilmiş, Şəhər İcra Hakimiyyətinə və Apellyasiya Şurasına sahibkarlardan şikayət müraciətləri daxil olmamışdır.

Şəffaflığın artırılması və açıq hökumətin təşviqi sahəsində müəyyən edilmiş tədbirlərlə bağlı olaraq informasiya əldə edilməsi, şəhər İcra Hakimiyyətinin öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumatların verilməsi, o cümlədən mütəmadi olaraq məlumatların yeniləşmiş əsaslarla Şəhər İcra Hakimiyyətinin internet saytında yerləşdirilməsi təmin olunmuşdur.

Bununla yanaşı şəhərdə ayda bir dəfə nəşr olunmaqla "Naftalan" ictimai-siyasi qəzeti fəaliyyət göstərir.Qəzetdə idarə, müəssisə və təşkilatlarda vətəndaşların qəbul qrafikləri, Azərbaycan Respublikasının Qanunları, Prezidentin Fərman və Sərəncamları, eləcə də şəhərin ictimai-siyasi həyatında baş verən hadisələr dərc olunmuşdur. "Naftalan" qəzeti də şəhərin ictimai-siyasi və sosial-iqtisadi həyatının müxtəlif sahələri üzrə əhalinin məlumatlandırılması istiqamətində özünəməxsus rol oynamışdır.

Ardı 4-cü səhifədə







# NAFTALAN ŞƏHƏRİNDƏ 2019-CU İLİN YEKUNLARI BARƏDƏ

# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun HESABAT MƏRUZƏSİ

Əvvəli 3-cü səhifədə

Dövlət xidmətlərinin vətəndaşlara daha rahat, əlçatan və yeni üsullarla təqdim edilməsi məqsədilə "Səyyar ASAN xidmət" mərkəzinin əməkdaşları tərəfindən Naftalan şəhərində 2019-cu ilin mart ayında xüsusi avtobus vasitəsilə şəhərdə 650 nəfərdən çox vətəndaşa səyyar formada müxtəlif dövlət xidmətləri göstərilmişdir.Məlumat üçün qeyd edirəm ki, 04 mart 2020-ci il tarixdən 18 mart 2020-ci il tarixədək vətəndaşlara yenə də səyyar formada xidmətlərin göstərilməsi nəzərdə tutulmuşdur.

Ölkəmizdə iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi möhtərəm Prezidentimizin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən biridir. Ölkə başçısının sahibkarlığın inkişaf etdirilməsi, sahibkarlar üçün imkanlar yaradılması və bu sahədə qanunsuz müdaxilələrin qarşısının alınması və yeni iş yerlərinin açılması ilə bağlı tapşırıqları istiqamətində işlər davam etdirilmiş və müvafiq tədbirlər həyata keçirilmişdir.

Şəhərin mövcud potensialına uyğun olaraq turizm sektorunda fəaliyyət göstərən və ya bu fəaliyyət növü ilə məşğul olmaq üçün müraciət edən sahibkarların fəaliyyəti üçün münbit şəraitin yaradılması bir vəzifə kimi qarşıya qoyulmuşdur.

Hesabat dövründə bir çox investorların ŞİH-nin Memarlıq və Tikinti şöbəsinə təqdim etdikləri tikinti layihələrinə şöbə tərəfindən qanunamüvafiq qaydada baxılmış, tikinti norma və qaydalarına, eləcə də şəhərin görkəminə uyğun gələn layihələrin icrasına icazə verilmiş və tikintiyə başlanılması üçün prosedura uyğun olaraq aidiyyəti üzrə müraciətlər ünvanlanmışdır.



Turistlərin sayındakı artımı və tələbatı nəzərə alaraq Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən yeni sağlamlıq-istirahət mərkəzləri açmaq istəyən sahibkarlara bundan sonra da dəstək göstəriləcəkdir.

Hazırda şəhərdə 10 mərtəbəli yeni Avtovağzal otel kompleksinin inşasında son tamamlama işləri aparılır. Naftalanın mərkəzinə yaxın yerdə yerləşən kompleksin ümumi ərazisi 1 hektar, tikintialtı sahəsi 2509 kvadratmetrdir. Binada ticarət mərkəzləri, otel nömrələri, ofis, geniş restoran fəaliyyət göstərəcək. Kompleksə geniş zal, kassalar, saxlama kameraları da daxildir. Restoran və mətbəx ikinci mərtəbədə yerləşəcək. Otel nömrələri üçüncü mərtəbədən başlayacaq.

Naftalanda yenidən qurulan daha bir sağlamlıq və istirahət mərkəzi də "Naftalan Hotel & SPA"dır. Son tamamlama işləri aparılan 10 mərtəbəli, 172 yerlik bu mərkəzin həyətində abadlıq işləri aparılır.

Naftalan şəhəri, Nizami küçəsində inşa edilən, ümumi torpaq sahəsi 1 hektar olan 4 mərtəbəli, 288 yerlik "Gold Naftalan" sağlamlıq və istirahət mərkəzində də tikinti işləri davam etdirilir.




Hesabat ilində inşasına başlanılan yeni 76 otaqlı, 176 yerlik "Naftalan sanatoriya kompleks"i, iki binadan, bir 5 mərtəbəli müalicə və poliklinika, bir 6 mərtəbəli yataq korpusundan ibarət olacaq.

Bundan başqa tikintisi aparılan, Nizami küçəsi 11 ünvanda yerləşən dördmərtəbəli yeni sanatoriya kompleksidir. Bu sanatoriya 88 otaqlı olmaqla 192 yerlikdir.

Şəhər sakinlərinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində işlər ötən ildə də uğurla davam etdirilmişdir.

Ümumilikdə Regional Dövlət Proqramlarının uğurlu icrası nəticəsində şəhərdə istilik, qaz, su-kanalizasiya təchizatının yaxşılaşdırılması sahəsində işlər tam başa çatdırılmışdır. Amma buna baxmayaraq, suya və enerji daşıyıcılarına cavabdeh olan qurumlarda bu arxayınlıq yaratmamalı və onlar əhalinin bu sahədəki təminatını daim yüksək vəziyyətdə saxlamalıdırlar.

Yalnız, elektrik təchizatının yaxşılaşdırılması məqsədilə dövlət proqramına uyğun bir çox işlər görülsə də, bu sahədə müəyyən işlər yarımçıq dayandırılmışdır.Bu səbəbdən də küləkli və yağışlı havalarda qısaqapanmalar baş verdiyindən elektrik verilişində ara-sıra fasilələr yaranır ki, bu da sakinlərin haqlı narazılığına səbəb olur. Eyni zamanda elektrik enerjisi təchizatında baş verən problemlər şəhərdə fəaliyyət göstərən turizm obyektlərinin işini günün tələbləri səviyyəsində qurmalarına qismən maneçilik törədir.

Qeyd olunanları nəzərə alaraq abonentlərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatının təmin edilməsi məqsədi ilə şəhər Elektrik şəbəkəsinin rəhbərliyi elektrik təsərrüfatında mövcud problemin həlli istiqamətində aidiyyəti qurumlarla birgə iş aparmalı və problemin həllinə nail olmalıdır.



Rabitə xidmətinin yaxşılaşdırılması məqsədilə 11 çoxmənzilli yaşayış binasında rabitə xətləri dəyişdirilərək borularla çəkilmiş və paylayıcı qutular yeniləri ilə əvəzlənmişdir. Qaşaltı Qaraqoyunlu kəndində əhalinin telefona olan tələbatını ödəmək üçün köhnə dirəklər və 1370 m məsafədə kabel xətləri yenisi ilə əvəz olunmuşdur. Qurban Namazəliyev adına yaşayış məhəlləsində növbədə olan 117 nəfərə, İsa Məmmədov adına yaşayış məhəlləsində isə 20 nəfərə yeni telefon xətti çəkilmişdir. Qasımbəyli kəndində də istismara yararsız 3 km məsafədə rabitə kabelləri yenisi ilə əvəz olunaraq 30 abonentə texniki normalara uyğun telefon və internet xətləri çəkilmişdir. Şəhər üzrə 1379 abunəçi yüksəktezlikli internet xidmətlərindən istifadə edir. Ötən il 4 ədəd 16 abonentlik abunəçi kartı və 3 ədəd 48 abonentlik ADSL avadanlığı quraşdırılaraq sakinlərin istifadəsinə verilmişdir.

Bildiyiniz kimi Naftalan Telekommunikasiya Qovşağının yardımçı binası hazırda təmir işləri aparılan Səməd Vurğun parkı ilə həmsərhəd ərazidə yerləşir. Bina uzun illərdir təmir olunmadığından dam örtüyü və fasad hissəsi bərbad vəziyyətə düşmüşdür ki, bu da yeni təmir olunmuş parkın görünüşünə xələl gətirəcək. Bu səbəbdən Qovşağın yardımçı binasının təmir olunmasının tez bir zamanda həyata keçirilməsi məqsədilə Telekommunikasiya Qovşağının rəhbərliyi müvafiq tədbirlər görməlidir. Çünki artıq sözügedən parkda aparılan təmir işləri yekunlaşmaq üzrədir.

"Azərpoçt" MMC-nin Naftalan Poçt Filialı tərəfindən illik plan və tapşırıqlar 42,560 min manata qarşı 32,028 min manat olmuşdur. Yəni 75 faiz yerinə yetirilmişdir.

2019-cu il ərzində əhali və qeyri-əhalini içməli su ilə təmin etmək üçün bir sıra işlər görülmüş, şəhər Sukanal idarəsi tərəfindən ümumilikdə 2614 abonentə su təsərrüfatı üzrə xidmət göstərilmişdir. Əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədi ilə abonentlərə öncədən ödəmə sistemli smart elektron su sayğaclarının quraşdırılması davam etdirilmiş, artıq 774 abonent bu sayğacdan istifadə edir. Su və kanalizasiya sistemində baş vermiş qəza halları qısa müddətdə aradan qaldırılmışdır. Ötən il göstərilən xidmətlərin dəyəri 425,684 min manat olduğu halda 438,270 min manat vəsait ödənilmiş və ya 103 faiz olmuşdur.

Ötən hesabat ilində şəhərdə məhsuldarlığı sutkada 3 min kubmetr layihələndirilən tullantı sutəmizləyici qurğu inşası işləri davam etdirilmişdir.

Şəhər ərazisində yeni tikilmiş evləri təbii qazla təmin etmək üçün qazlaşma işləri il ərzində davam etdirilmiş, bütün yaşayış məntəqələrinin təbii qazla təminatı tam həyata keçirilmişdir. Hesabat ilində Naftalan xidmət sahəsi tərəfindən 343-dən çox baş vermiş texniki nasazlıq operativ qaydada aradan qaldırılmışdır. 6430 abonent "Təbii qazdan təhlükəsiz istifadə qaydaları" ilə tanış edilərək təlimatlandırılmışdır. Qaz təchizatının yaxşılaşdırılması məqsədilə Xidmət sahəsi müasir maşın-mexanizmlər və avadanlıqlarla təchiz olunmuşdur. İstifadə olunan qazın dəyərinin ödənilməsi 95,1 faiz təmin edilmişdir.

Şəhər Elektrik şəbəkəsi tərəfindən 2951 abonentə xidmət göstərilmişdir. İl ərzində 10/0,4 kv-luq 23 müxtəlif gücdə olan transformator məntəqəsində əsaslı və cari təmir işləri aparılmışdır. Hesabat ilində Elektrik Şəbəkəsi tərəfindən alınmış və satışa ötürülmüş enerjinin dəyərinin 101,9 %-nin ödənilməsi təmin edilmişdir.

Ardı 5-ci səhifədə

# NAFTALAN ŞƏHƏRİNDƏ 2019-CU İLİN YEKUNLARI BARƏDƏ

# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun HESABAT MƏRUZƏSİ

Əvvəli 4-cü səhifədə

Payız-qış mövsümünə hazırlıq işləri ilə əlaqədar konkret vəzifələr müəyyənləşdirilərək icrasına başlanılmışdır.Belə ki, çoxmənzilli yaşayış binalarının dam örtüklərində zəruri tədbirlər həyata keçirilmiş, xüsusi qaldırıcı texnika cəlb olunaraq sıradan çıxmış yağış suları axıdılan navalçalar yenilənmiş, eyni zamanda şəhərdaxili yağış su barmaqlıqları təmizlənmişdir. Naftalan İstilik İstismarı sahəsinin balansında olan üç qazanxana əvvəlcədən qışa hazır vəziyyətə gətirilmiş, şəhər əhalisi, qeyri-yaşayış obyektləri, bir çox idarə və müəssisə fasiləsiz olaraq istiliklə təmin olunmuşdur.

Şəhərdə görülmüş və hazırda uğurla davam etdirilən işlər əhali tərəfindən rəğbətlə qarşılanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq kurort şəhəri Naftalanda son illər ərzində bir sıra infrastruktur və sosial layihələr uğurla həyata keçirilib. Bu işlərin başa çatması ilə şəhərin estetik gözəlliyinin bərpasına başlanılmışdır. Ötən il də şəhərin ayrı-ayrı küçələrində, çoxmənzilli yaşayış binalarının qarşısında, yol kənarlarında səliqə-səhman yaradılması, abadlıq və yaşıllaşdırma işləri xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Şəhərdaxili küçələrdə, çoxmənzilli binaların həyətində sanitar-təmizlik işlərinin yerinə yetirilməsi, məişət tullantılarının vaxtında götürülməsi təmin edilmişdir. Yararsız konteyner və yeşiklər yeniləri ilə əvəz olunmuş, bu sahədə istifadə olunan texnikaların işlək vəziyyətdə saxlanılmasına nəzarət artırılmışdır.

Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin mütəxəssisləri tərəfindən mütəmadi olaraq məktəblərdə, körpələr evi-uşaq bağçasında sanitar-gigiyenik müayinələr aparılmış, profilaktik peyvəndlərin yerinə yetirilməsi təmin edilmişdir. Bir çox çoxmənzilli yaşayış binasının zirzəmisində dezinfeksiya işləri həyata keçirilmişdir. Şəhərdə içməli su üzərində də ciddi sanitariya nəzarəti həyata keçirilmiş, əhaliyə verilən içməli su anbarlarında il ərzində bakterioloji və kimyəvi müayinələrin aparılması təmin edilmişdir.

Çoxmənzilli yaşayış binalarının girişlərində aparılan təmir işləri hesabat ilində davam etdirilmişdir. Bu günədək 21 çoxmənzilli yaşayış binasının girişləri əsaslı təmir olunmuş, suvaq və rəngləmə işləri aparılmışdır. Pilləkən və məhəccərlər təmir edilmişdir.

Bundan başqa "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" ölkə başçısının müvafiq Sərəncamına əsasən şəhərdəki 3 doqquzmərtəbəli yaşayış binasının liftində əsaslı təmir işləri aparılmışdır.

Şəhər ərazisində il ərzində ümumilikdə 5000-dən çox müxtəlif növ ağac əkilmiş, parklardakı əkilən gül kolları yenilənmiş, mövcud yaşıllıqlara qulluq göstərilmişdir.

Turistlərin daha çox istifadə etdiyi Şirvan prospektindən şəhərin mərkəzinə gələn yeni yol bərpa olunmuş, yeni asfalt örtüyü vurulmuş və 30 ədəd müasir işıq dirəyi quraşdırlaraq həmin yol işıqlandırılmışdır. Bayraq Meydanında da təmir-bərpa və yaşıllaşdırma işləri görülmüşdür

Həm şəhər sakinlərinin, həm də yerli və xarici turistlərin asudə vaxtlarının daha yaddaqalan olması üçün Heydər Əliyev, Səməd Vurğun və Nəriman Nərimanov parklarında əsaslı təmir işləri davam etdirilmişdir.

Heydər Əliyev Parkında səki daşlarının altı mişar daşı ilə hörülüb və 1390 paqometr səki daşı düzülüb. Səkilərə 2 min kvadratmetr tamet döşənmiş və yeni işıq dirəkləri quraşdırılmışdır.

Ümumi sahəsi 3,64 hektar olan Səməd Vurğun parkında səki daşlarının altı mişar daşı ilə hörülüb və 2400 paqometr səki daşı düzülüb. Səkilərə 3700 kvadratmetr tamet döşənib. Parkda ümumi sahəsi 250 kvadratmetr olan və ilboyu istifadəsi nəzərdə tutulan açıq və qapalı kafenin tikintisində son tamamlama işləri aparılır. Parkda 38 ədəd yeni işıq dirəyi quraşdırılıb. Ərazidə yaşıllıqların suvarılması üçün 1450 metr uzunluğunda su xətti çəkilib. Bundan əlavə, həm dekorativ görünüş, həm də isti yay günlərində parkda sərinlik yaratmaq üçün ərazidə müasir dizaynda fəvvarə quraşdırılıb. Parkda salınan yeni avtodayanacağın beton bordürləri düzülüb, asfalt örtüyü salınıb.

Ümumi sahəsi 6,3 hektar olan Nəriman Nərimanov parkında da səki daşlarının altı mişar daşı ilə hörülüb və 1280 paqometr səki daşı düzülüb. Səkilərə 3200 kvadratmetr tamet döşənib. Bu parkda da sakinlərin və turistlərin mənalı istirahəti üçün fəvvarə quraşdırılacaq.

Bundan başqa əhalinin və turistlərin müraciətlərini nəzərə alaraq şəhərin parklarında sanitar qovşaq tikintisinə başlanılmış, hazırda işlər yekunlaşmaq üzrədir.

Məlumdur ki, Respublikamızda qeyri-neft sektorunun ən çox inkişaf edən sahələrindən olan turizm bir çox bölgələrin, xüsusən də müalicəvi nefti ilə məşhur olan Naftalan şəhərinin iqtisadiyyatının əsasını təşkil edir. Ötən il sözügedən sahənin dinamik inkişafı davam etdirilmiş və innovativ addımlar atılmışdır. Ölkəmizin sağlamlıq turizminin əsas mərkəzlərindən olan və unikal müalicəvi əhəmiyyətli neftinə görə dünyada böyük şöhrət qazanmış Naftalanda dincəlmən və müalicə almaq istəyənlərin sayı ildən-ilə artır.

Son illərdə ölkəmizdə görülmüş bütün işlər, o cümlədən beynəlxalq arenadakı mövqe, keçirilmiş beynəlxalq tədbirlər, hökm sürən sabitlik və əmin-amanlıq respublikamızda, eləcə də Naftalanda turizmin inkişafına böyük təkan vermişdir.2019-cu ildə Naftalana olan turist səfərləri rekord həddə çatıb - şəhərə 40 min turist gəlmişdir. Onlardan 40 faizi dünyanın 61 ölkəsindən gələnlər olmuşdur.

Turistlərdən Rusiya, Qazaxıstan, Özbəkistan, İsrail, Ukrayna, Belarus, Türkiyə, Səudiyyə Ərəbistanı, Küveyt, Litvadan olan qonaqlar üstünlük təşkil edib. Bununla yanaşı Birləşmiş Ərəb Əmirlikləri, Tacikistan, Bəhreyn, Qətər, İran, Çin, Estoniya, Almaniya, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Qırğızıstan və Kanadadan olan turistlər də buradakı kurort və sanatoriyaların xidmətlərdən istifadə ediblər. Ölkə başçımızın qeyd etdiyi kimi, Naftalan vaxtile Ümumittifaq turizm mərkəzi idi. Bu gün biz bunu beynəlxalq turizm mərkəzinə çeviririk.

Hazırda Naftalanda 11 turizm obyekti fəaliyyət göstərir və burada bir gündə 2500-dən çox turist müalicə ala və istirahət edə bilər. Şəhərdə tikintisi davam etdirilən turizm obyektləri də istifadəyə verildikdən sonra Naftalanda gün ərzində, ümumilikdə, 3500-ə yaxın turistə otel və müalicə xidmətləri göstərmək imkanı olacaqdır.

Bir faktı qeyd edim ki, Naftalanda yerləşən müasir otel və istirahət mərkəzləri Novruz və Yeni il bayramları ərəfəsində hər dəfə 2000-ə yaxın yerli və xarici turistə xidmət göstərib.

Həmçinin ötən il Naftalanın turizm potensialının tanıdılması və sağlamlıq turizminin təbliği məqsədilə şəhərdə fəaliyyət göstərən turizm obyektləri ölkəmizdə və xaricdə keçirilən sərgilərdə iştirak etmiş, ziyarətçilərə Naftalan şəhəri, onun müalicəvi əhəmiyyətə malik olan naftalan nefti və göstərdikləri xidmətlər haqqında ətraflı məlumat vermişlər. Eyni zamanda Rusiya Federasiyası, Ukrayna, Özbəkistan, Rumıniya, Qazaxıstan, İran, Fransa, İspaniya, Çin, Yaponiya, Almaniya və digər ölkələrin kütləvi informasiya vasitələrində Naftalanın turizm potensialı və müalicəvi Naftalan nefti haqqında məqalələr dərc edilmiş, verlişlər yayımlanmışdır.

2019-cu ilin fevral ayında 40-dan çox ölkəni və beynəlxalq təşkilatları təmsil edən diplomatlar Naftalanın turizm potensialı və şəhərdə fəaliyyət göstərən sağlamlıq və istirahət mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olublar. Qonaqlara Naftalan şəhərinin turizm potensialı haqqında məlumat verilmişdir.









Respublikamızda qeyri neft sektorunun əsas sahələrindən olan turizmin, xüsusən də müalicə turizminin inkişafı istiqamətində son illərdə böyük nailiyyətlər əldə edən və ölkəmizin beynəlxalq turizm mərkəzlərindən birinə çevrilən Naftalan xarici qonaqlarda xoş təəssürat yaratmışdır.

Bundan başqa may ayında Litva Respublikasının Briştonas şəhərinin nümayəndə heyəti Naftalan şəhəri ilə tanışlıq, eləcə də şəhərin turizm imkanlarının qiymətləndirilməsi və təhlillərin aparılması məqsədi ilə şəhərimizə səfər etmiş və burada fəaliyyət göstərən sağlamlıq və istirahət mərkəzlərində yaradılmış şəraitlə, o cümlədən naftalan nefti ilə aparılan müalicə prosedurları və digər xidmət sahələri ilə yerində tanış olmuşlar. Briştonas şəhəri haqqında məlumat verən vitse mer Naftalanla Briştonasın oxşar şəhərlər olmasını nəzərə alaraq əməkdaşlıq əlaqələrinə dair istəklərini ifadə etmişlər.

Bildiyiniz kimi Naftalan kurort şəhərinin inkişafı və keçmiş şöhrətinin bərpası ölkə başçısının daim diqqətdə saxladığı məsələlərdəndir. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli müvafiq Fərmanı da şəhərimizin perspektiv inkişafına təkan verən strateji qərarlardan biridir.

Ardı 6-cı səhifədə

# NAFTALAN ŞƏHƏRİNDƏ 2019-CU İLİN YEKUNLARI BARƏDƏ

# Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun HESABAT MƏRUZƏSİ

Əvvəli 5-ci səhifədə














Strateji yol xəritəsinin müvafiq bəndinə uyğun olaraq şəhər İcra Hakimiyyəti tərəfindən şəhər ərazisində turistlər üçün maraq doğuran digər cəlbedici yerlərin bərpası məqsədi ilə hesabat məruzəsinin əvvəlində də qeyd etdiyim kimi ötən il müvafiq işlərə başlanılmış, mədəniyyət müəssisələrində, ən əsası da "Çəlik" muzeyinin bərpası istiqamətində işlər başa çatmış, hazırda Heydər Əliyev, Səməd Vurğun, Nəriman Nərimanov parklarında əsaslı təmir işləri davam etdirilir.

Dekabr ayında Naftalan Şəhər İcra Hakimiyyəti, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə təşkilatçılığı ilə Naftalan şəhərinin ilkin turizm inkişaf planı təqdim olunmuş.Turizm Agentliyinin bu işə qoşulması həm şəhərdə turizmin inkişafında, həm də ümumilikdə Azərbaycana gələn turistlərin sayında mühüm rol oynayacaqdır.

Bir sözlə möhtərəm cənab Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq müalicəvi Naftalan nefti ilə sağlamlıq turizmi istiqamətində inkişaf etmiş Naftalan şəhərini müasir kurort mərkəzinə çevirmək və beynəlxalq turizm mərkəzi kimi daha da inkişaf etdirmək qarşıdakı əsas vəzifələrimizdəndir.

Ona görə də görülən işlərlə yanaşı bu sahədə çalışan rəhbər şəxslər də Naftalana gələn turistlərə göstərilən xidməti yüksək səviyyədə təşkil etməli və çalışmalıdırlar ki, turistləri məmnun edərək onların sayının artmasına nail olsunlar. Elə etməliyik ki, şəhərimizə gələn qonaqlar ölkəmiz və şəhərimiz haqqında müsbət mənada təəssüratlarını özləri ilə aparsınlar. Çünki Naftalana gələn əcnəbi qonaqlardan şəhərimiz, onun gözəlliyi və müasirliyi barədə eşitdiyimiz xoş sözlər hər birimizin qəlbini qürur hissi ilə doldurur.




Bundan başqa bir vacib məsələni də turizm obyektlərinin rəhbərlərinin nəzərinə çatdırmalıyam ki, şəhərimizin əsas statistik göstəricisi sayılan müalicə və istirahətə gələn yerli və xarici qonaqların sayının düzgün və vaxtında verilməsi təmin edilməlidir.

Hörmətli toplantı iştirakçıları,

Çıxışıma yekun vuraraq qeyd etmək istəyirəm ki, Naftalanın kurort şəhərinin hərtərəfli inkişafında əldə olunan nailiyyətlərin hər biri ölkəmizin hər bir bölgəsində olduğu kimi Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Şəhərdə çalışan dövlət qulluqçularının, təhsil, səhiyyə işçilərinin və digər sahələri əhatə edən şəxslərin dövlət başçımızın müvafiq sərəncamları ilə müxtəlif ad və medallarla təltif olunması ölkə rəhbərinin şəhərimizin hər bir sakininə göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir.

Mən fürsətdən istifadə edərək Azərbaycan dövləti və xalqı naminə gördüyü misilsiz işlərə, şəhərimizə göstərdiyi diqqət və qayğıya görə Zati-aliləri cənab Prezident İlham Əliyevə naftalanlılar adından dərin minnətdarlığımı bildirir və əminliklə qeyd edirəm ki, Naftalan şəhərində ölkə başçımızın bütün tapşırıqları bundan sonra da böyük məsuliyyət hissi ilə icra ediləcəkdir.

Diqqətinizə görə sağ olun!

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Şıxəli Qurbanov küçəsi 1.
Telefon: (022) 352-14-55
ayten_aliyeva.1986@mail.ru

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500